**Əvəz İslam oğlu BAYRAMOV**
i. e. d., professor, Azərbaycan Dövlət İqtisad Universiteti

**Vüqar Avtandil oğlu BAYRAMOV**
i. f. d., dosent, Azərbaycan Milli Aviasiya Akademiyası

# FUNKSIONAL KONTEKSTDƏ AVTONOM HAKIMIYYƏT ÇOXLUĞU: ÇAĞIRIŞLAR VƏ IMKANLAR

**Xülasə**

**Tədqiqatın məqsədi** - milli iqtisadi inkişafın, insan kimi yaşayan insan cəmiyyəti quruculuğunun mərkəzləşdirilmiş milli hakimiyyətdən kənarda reallaşmasının qeyri-mümkünlüyünü əsaslandırmaqdan ibarətdir. Rəqəmsal transformasiya mərkəzi/milli hakimiyyəti yararsız hala salmaqla milli varoluşun mövcudluğunu təhdid edəcək dəyişikliklərə rəvac verməkdədir. Bu anlamda milli sosiumun yalnış inkişaf trayektoriyasına keçidi ehtimalının gerçəkləşmə imkanları kifayət qədər yüksəkdir.

**Tədqiqatın metodu** - tədqiqatın metodoloji bazası poststrukturalizmə istinad edir.

**Tədqiqatın nəticələri** - araşdırmanın nəticələri problemin mahiyyət çalarları, xarakteri və spesifikasını, eləcə də konseptuallıq sərhədlərini ehtiva edir.

**Açar sözləri:** hakimiyyət; milli varlıq; funksionallıq; rəqəmsal paradiqma; iqtisadi hərəkət; yeniləşmə.

**JEL:** H00
**UOT:** 330
**DOI:** https://doi.org/ 10,54414/YGJO8760

## Giriş

Milli spesifikasından, cəmiyyətin daxili yaşayış qaydalarının dəyər tutumundan asılı olmayaraq əksər dünya ölkələrinin əsas hədəfi dayanıqlı inkişaf trayektoriyasına keçməklə milli rifahın davamlı yüksəlişinə nail olmaq və sonuc etibarı ilə insan kimi yaşayan insan cəmiyyətini qurmaqdır. Bu yeganə hədəfdir ki, sözün həqiqi mənasında universal səciyyə daşıyır. Modern era üçün immanent olan hədəf – rəqəmsal transformasiya kontekstində əsaslı dəyişikliyə uğrayır. Kardinal dəyişikliyə uğrayanlar sırasında milli hakimiyyətin əks-mərkəzləşdirilməsi problemi xüsusi aktuallıq kəsb edir. Hətta neoklassika belə hakimiyyətin/dövlətin "ləğvini" deyil, iqtisadiyyata müdaxiləsinin məhdudlaşdırılmasını "tələb" edirdi. Rəqəmsal konstruksiya isə mərkəzi hakimiyyəti praqmatik faydası olmayan siyasi üstqurum kimi "inkar" edir. Ədalət naminə qeyd etmək lazımdır ki, sözügedən "inkar" – siyasi, yaxud ideoloji məzmun daşıyan qərar deyildir. "İnkar" (mərkəzi hakimiyyətin) – rəqəmsal hərəkətin gedişi qanunauyğunluqlarından qaynaqlanan təbii/obyektiv nəticədir. Söz yox ki, ümumbəşəri təkamül prosesində "yaradılan", yəni "əvvəli" olan hər şeyin sonu da vardır. Məsələn, rəqəmsal transformasiya – bazarı fiaskoya uğradır, insanın təbii mövcudluğunu süniliklə əvəz edir və s. Belə bir situasiyada heç cür standartlaşdırıla bilməyən, sosial-siyasi və iqtisadi norma və normativlərə yabançı elementlər kimi yanaşan rəqəmsal konstruksiyanın funksional fəaliyyət sferasında doğurduğu avtonom xarakterli "hakimiyyətlər çoxluğu formalaşır… İndividual/fərdi iradə qlobal iqtisadi "hakimiyyətə" sahib olur. Problemin qəlizliyi ondadır ki, rəqəmsal iqtisadiyyat quruculuğundan yan

keçmək, milli varlığın gələcəyi, gələcək mövcudluğu aspektindən qeyri-mümkündür. Eləcə də, rəqəmsal transformasiya prosesinə qoşulmaq da eyni nəticəni verəcəkdir… Axtarılan şey: milli iqtisadiyyatın dayanıqlı inkişafının təminatı, xüsusi/həyati əhəmiyyət daşıyan milli dövlətin qorunması prizmasından tərəflərarası kompromissə nail olmaq imkanı varmı?

***Problemin konseptual qoyuluşu…***

Məsələ burasındadır ki, rəqəmsal konstruksiya ziddiyyətli müxtəlifliklərin kontiniumunun "görüntüsünü" yaratma iqtidarındadır. Və, bu aspekt dünya ölkələrinin böyük əksəriyyətində – 2019-cu ilə qədər – əsli-əsası olmayan, eyforik canlanma yaratmışdır. Amma rəqəmsal texnologiyalar inkişaf etdikcə, gələcəkdə yaranacaq situasiyanın heç də birmənalı olmadığını üzə çıxardı.

Digər tərəfdən, milli dövlətin zəruriliyi və əhəmiyyətliliyinin, modernist paradiqmada olduğu kimi, "iqtisadi mərkəzçilik" ideologiyası bazasında qiymətləndirilməsi tipli xətalı praktikanın bu gün də davami etməsi milli sosiumun yalnış inkişaf trayektoriyasına keçidi ilə sonuclana bilər. Müasir reallıqdan çıxış etməklə, qeyd edə bilərik ki, sözügedən praktika artıq bir sıra ölkələrdə oturuşmuş haldadır. Yalnış trayektoriya seçimi problemi – inkişaf etməkdə olan ölkələrdə, o cümlədən postsovet Avrasiyasında xüsusilə aktualdır. Yalnışlığı doğuran əsas səbəblərdən biri tarixi inkişaf mərhələlərinin məntiqi ardıcıllığına əməl etməmək, yeni inkişaf mərhələsinə keçidin leviteral məzmunda şərhi, yeniliyə "sıçrayışla" qovuşmanın mümkünlüyünə bəslənən hipotezlərin populyarlaşması və iqtisadi siyasətin, gələcəyə strateji baxışın həmin hipotezlər üzərində qurulmasıdır. "Yeniliyin" genezisi, hər şeydən əvvəl, əksər sahə və sferalar arasındakı izomorfizmə – struktur bərabərliyi prinsipinə istinad edir… Başqa sözlə, sistem bütövlüyü, sosio-milli identiklik – sosial varlığın bazisində dayananlardır. Bu anlamda, ayrıca götürülmüş milli varlıq strateji kontekstdə nəyə üstünlük verməlidir:

1) Milli dövləti/hakimiyyəti qoruyub saxlamağamı?

2) Əvvəldə də qeyd etdiyimiz kimi, tərəflərarası kompromisəmi?

3) Funksional (rəqəmsal prizmadan) "hakimiyyətlər" çoxluğunamı?

Rəqəmsal məzmunlu "hakimiyyətlər" çoxluğu doğrudanmı yaranmış fəsadlı situasiyadan çıxış yoludur? Bu suallara, hesab edirik, nəzəri-konseptual anlamda tükətici cavab verməyin tam zamanıdır. İlkin olaraq deyilənlər kontekstində, iqtisadi hərəkətin yeniləşmə spesifikasıyasına nəzər salaq.

***İqtisadi hərəkət: dəyişən nədir?***

Blok-sxemdən (şək.1) göründüyü kimi, industrial təsərrüfat tipinin iqtisadi hərəkəti mərkəzi hakimiyyətə (oxu: milli dövlətə) "möhtacdır". Belə ki, iqtisadi hərəkətin normal gedişi formal və qeyri-formal institutların uyğunluq dərəcəsindən, harmoniyasından funksional asılılıqdadır. İqtisadi hərəkətin yaranma mexanizminin kökündə – milli hökumət dayanır… Yəni, klassik/neoklassik baxışlarda eqoist mənafelərə xidmət edən "iqtisadi insan" abstraksiyasını və spontan qaydanın dağıdıcı təsirini cilovlayan, sistem bütövlüyü yaradan mərkəzi subyekt milli hökumətdir. Milli hökumətin bir çox hallarda qeyri-effektiv fəaliyyəti, individual iradənin mütləqləşdirilməsi üçün yaxud milli hökumətin arxa plana keçirilməsi yaxud ondan imtina üçün əsas ola bilməz. "Spontan qayda", "iqtisadi insan" modeli tipli abstraksiyalar yalnız mini və mikro səviyyədə funksional fəaliyyət mexanizminin aparıcı komponentləri ola bilərlər… Makro səviyyə – ümummilli səviyyədir və heç bir halda individual iradəyə (oxu: eqoizmə), həmçinin spontan qaydaya istinad edə bilməz.

Rəqəmsal (virtual) hərəkətin yaranma mexanizmi isə rəqəmsal texnologiyaların inteqrasiyasıdır.

Klassik-neoklassik məzmunlu individual/fərdi iradənin "mütləqliyi" rəqəmsal konstruksiyada kulminasiya nöqtəsinə çatır. Spontan qayda (oxu: bazar, "görünməyən əl") "rəqəmsal" qayda ilə əvəzlənir və iqtisadiyyat postbazar erasına transfer edir. Qeyri-formal institutlar "unudulur", formal institutlara heç bir ehtiyac qalmır… rəqəmsal iqtisadi hərəkət – standartlaşdırıla bilməz. Hansısa bir anlamda norma və normativlər mötərizə xaricində qalırlar. Rəqəmsal iqtisadi hərəkət – "təkcə"nin, aramsız olaraq fərqli "təkcə"lərə parçalanmasını özündə ehtiva edir. Eyni zamanda, rəqəmsal konstruksiyanın

mərkəzi, həm də yeganə subyekti "rəqəmsal insan"dır ki, o da rəqəmsal transformasiya yekunlaşdıqdan sonra öz yerini "süni intellektə" verir. Yəni, bəşər tarixində ilk dəfə olaraq insan – sözün tam mənasında funksional fəaliyyət sferasından uzaqlaşdırılır.




**Şəkil1. İqtisadi hərəkətin mahiyyətcə yeni modifikasiyası**

Və, təbii ki, paralel olaraq həmin insanın/insanların qurduğu hakimiyyətə də ehtiyac qalmır. Sonrakı mərhələdə isə – süni intellekt insan populyasiyasını süni implantların vasitəsi ilə mutasiyaya uğradır: "transinsan", "postinsan" tipli mutantlar meydana çıxır.

Beləliklə, "ümumi", "milli", "kollektiv" iradə və mənafelər aradan qalxır… "İndividual" iqtisadiyyat formalaşır... individual iradə və mənafeyə istinad edən iqtisadiyyat. Bu tipli iqtisadiyyatın mövcudluq şərti individuallaşmanın/fərdiləşmənin aramsız və hətta dayanıqlı şəkildə yeni/müxtəlif yönümlü fərdiləşmə prosesinin sabitqədəmli gedişidir… Bazar fiaskoya uğrayır… Qeyri-müəyyənlik tam şəkildə "müəyyənləşir" və sonuc olaraq spontan qayda rəqəmsal/şüurlu qayda ilə əvəz olunur.

Mühüm məqamlardan biri də zamana münasibət məsələsidir. Modernist paradiqmanın yüksələn xətlə gedən zaman modeli rəqəmsal konstruksiyada "işləmir"… Zamanın "resurs" və "interval uzunluğu"nun ("əvvəl" və "sonra" arasındakı vaxt intervalı) əhəmiyyəti itirilir/mənasızlaşır. Rəqəmsal konstruksiyada iqtisadi hərəkət zamanla ölçülmür. Zaman – "idarəedilən" hala gəlir: individual iradədən asılı olaraq sürətləndirilə, ləngidilə, dayandırıla bilər. Başqa sözlə, rəqəmsal konstruksiyada zaman "yaradılandır". (Sözsüz ki, söhbət virtual zamandan gedir). Məsələ də ondadır ki, virtual zamanda həyata keçirilən funksional fəaliyyət real nəticələr doğurur. Real zamandan "kənarda" iqtisadi hərəkət tam şəkildə "nəzarətdən" çıxır. Və, ayrıca götürülmüş individiumun mütləq "tabeçiliyinə" keçir. Sübut etməyə ehtiyac yoxdur ki, belə bir situasiyada mərkəzləşdirilmiş hakimiyyət yaxud milli hökumətə ehtiyac qalmır.

**Hibridləşmə… sərhəd situasiyası**

Rəqəmsal konstruksiya – iqtisadi hərəkəti "situasiyaların növbələşməsi" formasında dizayn edir. Yəni, nə "əvvəli", nə də "sonranı" müəyyənləşdirmək mümkün olmur. Və,

nəticədə iqtisadi hərəkətdə simmetrikliyin, sinxronluğun və proporsionallığın qərarlaşması prosesində "interval uzunluğu" ölçü proseduru kimi mənasızlaşır. [1, səh.127]

Ən təhlükəli məqam – yeniləşmə prosesinin "əbədi" olaraq (sərhəd situasiyasında) unikal səciyyəli "yeni" yaranışla sonuclanması yaxud "hibrid" təsərrüfat tipinin yaranmasıdır. Məsələn, postsovet coğrafiyasında hibridləşmə prosesi intensiv formada davam etməkdədir.

Paradoks da ondadır ki, bu ölkələr qrupunda (Baltikyanı ölkələr xaric) modern cəmiyyət, industrial təsərrüfat tipinin formalaşması prosesi hələ başa çatmamış, müşahidə edilən hibridləşmədə "köhnə"nin dəyərlər sisteminin xüsusi çəkisi yüksək olaraq qalmaqdadır… Eyni zamanda, məlumdur ki, "hibrid"ləşən sosio-iqtisadi sistemin "sərhəd situasiyasına" daxil olması, prinsipcə, qeyri-mümkündür. Yeniləşmə kontekstində aparılan "təbliğat-şou"lar əsaslandırılmamış inam (sosiumda) doğurmaqdan qeyri bir anlam daşımır. "Hibridləşmə" – təkamül prosesinin durdurulması deməkdir. "Köhnəliyə" istinadla aparılan yeniləşmə prosesinin yeganə effekti – sosio-iqtisadi "bataqlığın" uzunömürlülüyünün təminatıdır. Və, belə bir situasiyada rəqəmsal paradiqmaya keçid imkansız hala gəlir.

Texnoloji yüksəliş, innovasiyaların "salxım" formasında tətbiqi – sözügedən transformasiyanın əsas hərəkətverici qüvvəsi kimi təqdim olunur.

**Rəqəmsal transformasiya: mahiyyət özəllikləri**

Rəqəmsal transformasiya – yeni, bəşər tarixində analoqu olmayan texnoloji uklad formalaşdırır… İqtisadi effektivliyin maksimumuna çatmağa imkan verən texnologiyalar yaradılır. Qəti şəkildə əminlik bildirilir ki, daha yüksək keyfiyyətli gələcək quruculuğu prosesi – biramilli səciyyə daşıyır: yəni təkcə texnologiyanın inkişafı kifayətdir.

Məlumdur ki, yüksək keyfiyyətli inkişaf mərhələsinə keçid, bəşər tarixinin heç bir dönəmində "biramilli" xarakterdə olmayıbdır.Yəni, rəqəmsal transformasiya yalnız və yalnız texnologiyaların (yeni – rəqəmsal) inkişafını hədəfləməkdədir. Və, bununla da yeni keyfiyyətli gələcək quruculuğunun mümkün olacağına möhkəm inam bəsləyirlər. Həqiqətən də, rəqəmsal transformasiya yalnız texnologiyalarla "məşğul" olur.

Cəmiyyətin sosio-iqtisadi varlığının dəyərkonsept tutumuna tam şəkildə biganə yanaşılır.

Bununla belə:

1) Modern dövrün "iqtisadi insan" abstraksiyasını və onun əsas dəyərlərini (eqoizm, rasionalizm, gedonizm) deformasiyaya uğratmır.

Yəni:

– "İqtisadi mərkəzçilik" ideologiyası mövcudluğunu nəinki qoruyub-saxlayır, hətta daha da möhkəmləndirir;

– İndividual/fərdi iradə əsas aparıcı və hərəkətverici qüvvəyə çevrilir. Lakin "insan mərkəzçiliyi" ideologiyasına dönüş baş vermir. Tam əks-yönümdə fəaliyyətin həyata keçirilməsi nəzərdə tutulur: "trans-insan", "postinsan" formalı mutantların yaradılması! Yəni, individual/fərdi iradə inkişaf prosesində özüözünü inkar edir.

– Əsas hədəf: faydanın maksimumuna nail olmaq: "olduğu kimi qalır. Yalnış təsəvvür yaranmaması üçün, qeyd edək ki, "faydanın maksimumlaşdırılması"–modernizmdə olduğu kimi – ümümrifah cəmiyyəti/dövləti quruculuğuna yönəldirilmir. Fayda–sırf individual səciyyə daşıyır. Və, fərdi mənafelərin ödənilməsi kontekstində həyata keçirilir.

– İqtisadi təfəkkür – hər şeyin və hamının əsas qiymətləndirici instansiyası olaraq qalır.

– A. Smitin "ədalətli eqoistini" – "iqtisadi insanı" – qeyri-müəyyənlik arealından "xilas edir".

Hər şey, amma hər şey müəyyənliyə qovuşur, o cümlədən "görünməyən əl" görünən hala gəlir. Bazar fiaskoya uğrayır və postbazar erasına keçid başlanır.

2) Nəhayət, rəqəmsal konstruksiyada milli dövlətə yer yoxdur.

Rəqəmsal konstruksiya milli varlığın sistemlilik keyfiyyətini aradan qaldırır… "Pərakəndələşmə" prosesi start götürür. Hətta, individual kontekstdə iqtisadi "Mən"in (modern erada olduğu kimi) "yeganə"liyinə son qoyulur. İqtisadi "Mən" çoxsaylı "Mən"lərə parçalanır. Müxtəliflilik, fərqlilik o dərəcədə dərinləşir ki, rəqəmsal iqtisadiyyatda davranış modelini belə

nəzəri prizmadan formalaşdırmaq mümkün olmur. "…Fərqlilik – əvvəlki varoluşa münasibətdə ənənəvi yanaşmanın fövqündə dayanır. Və, ən maraqlı cəhət də ondan ibarətdir ki, fərqlilik – eyniyyətlə yekunlaşmır, homogenləşmir… təkrar olunur". [1,səh.236]

Həmçinin "fərqlilik" sabitlik keyfiyyətindən xalidir. Yəni, təkrarlanma – olduğu kimi təkrarlanma deyildir… Bu aspektdən ikinci əsas xüsusiyyət ondan ibarətdir ki, rəqəmsal transformasiyada modernist paradiqmanın istinad etdiyi üçlük: müxtəlifliklər → uyğunlaşma → homogenlənmə → (eyniyyətə gəlmə) "müxtəlifliklər → müxtəlif fərqliliklər → müxtəlif fəqliliklərin fraktal dövriyyəsi üçlüyünə transfer edir. [1,səh.236]

Əslində, rəqəmsal transformasiya – konseptual aspektdən, həm də müxtəlif fərqliliklərin aramsız olaraq dərinləşməsi. Yaxud, davamlı gedişi prosesidir. Elə buradaca qeyd edək ki, sözügedən "müxtəlifliyin", "fərqliliyin", milli, siyasi ideoloji, dini və s. aspektlərə aidiyyəti yoxdur.

Rəqəmsal paradiqma sadalananlara – sözün bütün mənalarında - etinasız münasibət sərgiləyir. Rəqəmsal transformasiyanın əsas hədəflərindən biri sayı 5 mindən çox olan millətlərin, 10 min özünəxas spesifikası olan cəmiyyətlərin rəqəmsal "kütləyə" transfer etməkdən ibarətdir.

K. Şvab bu prosesin artıq böyük intensivliklə getdiyini əminliklə qeyd edir: "Əgər üç ən böyük məşhur sosial media saytını bir ölkə kimi təsəvvür etsək, görərik ki, onlar Çindən bir milyard daha çox əhaliyə sahibdirlər". [7]

Görünən bu ki, meqaprosesin yekunu olaraq bütün bəşəriyyət zooloji instinktlə yaşayan "yüksək intellektual səviyyəli" "boz" kütləyə çevrilmə təhlükəsi ilə qarşılaşacaqdır.

Və, belə bir situasiyada "kütlənin" insanlıq mahiyyətini aradan qaldırmaq və postinsan, yəni insansız "insan cəmiyyəti" erasına keçid etmək sırf mexaniki səciyyə daşıyacaqdır.

Poststruktualizm hesab edir ki, "…reallıq" maşınlıdır. Və o, təkcə inkişaf etmir, həm də digər maşınlarla birləşir. [5]

Rəqəmsal konstruksiyada fərd → sosium, fərd → sosium → dövlət münasibətləri, ümumiyyətlə, yer almır… Mövcudluq və inkişafın (əlbəttə ki, sırf individual/fərdi kontekstdə) fundamentində "maşın → maşın" münasibətləri dayanır.

Sosium, individium, millət və s. -dən fərqli olaraq "maşın"lar daha çevik formada inkişaf edə, inteqrasiya oluna bilərlər ki, bu da iqtisadi effektivliyin, faydanın (individual bölümdə) maksimumlaşdırılması yönümündə xüsusi əhəmiyyət kəsb edir. Şübhə yoxdur ki, "maşın → maşın" münasibətlərində intellektual məzmunla "yüklənmiş" zooloji instinkt ön planda yer almağa başlayır. Əgər, nəzərə alsaq ki, "maşının" (rəqəmsal texnologiyanın) insani fəzilətlərlə, dəyərlər sistemi və mənəvi-etik normalarla heç bir əlaqəsi/bağlılığı yoxdur, onda sistem bütövlüyü, ümummillilik və s. bu tipli anlayışlardan danışmağın heç bir mənası qalmır. Və, tam məntiqi olaraq da dövlət/mərkəzi hakimiyyət fiaskoya uğrayır. Rəqəmsal transformasiyanın yaratdığı "hakimiyyət" termininin klassik mahiyyətində kardinal dəyişiklik doğurur:

1) Mərkəzi yaxud milli hakimiyyət olmur. Hər bir funksional sferanın özünəxas "hakimiyyəti" formalaşır.

2) Əgər belə demək caizsə, "funksional hakimiyyətlər" çoxluğu suveren fəaliyyət göstərirlər; Hətta bugünkü dünya dövlətlərinin böyük bir qrupu ilə müqayisədə suverenlik daha yüksək səviyyədə olur.

3) Rəqəmsal "hakimiyyətin" istinad etdiyi əsas prinsiplərdən biri klassik anlamda "ağalıq – tabeçilik" deyil, "könüllülük" prinsipidir. Bütün həyat tərzi rəqəmsal formata salınmış sosiumun "könüllü" şəkildə "rəqəmsallaşması" baş verir.

Belə bir situasiyada, təəccüblü deyildir ki, milli-mental dəyərlər sistemi, insanın mahiyyətini formalaşdıran dəyərlər – rəqəmsal "təftişə" məruz qalırlar: praqmatik faydası (sırf iqtisadi anlamda) olmayanlar "unudulur".

4) Rəqəmsal "hakimiyyət" – modern eranın milli dövlətlərinə xas olan bir sıra neqativləri aradan qaldırır:

– Opportunist davranış imkansız hala gəlir. İndividual/fərdi iradəyə xidmət edən "hakimiyyət" daxilində opportunizm ola bilməz.

– Modern hakimiyyət tipinin əsas xarakteristikası olan bürokratiya aradan qalxır.

Rəqəmsal “hakimiyyətdə” iqtisadi prosesin təşkili, tənzimlənməsi və idarə edilməsi sferasında nələrinsə hansısa instansiyalarla “razılaşdırılması” deyilən bir problem yoxdur. Rəqəmsal formatlı qərarların qəbulu, “razılaşdırılmaları” “ani” olaraq baş verir.

– Rəqəmsal “hakimiyyətdə” vəsaitlərin səmərəsiz sərf edilməsi, resursların qeyri-effektiv bölgüsü, korrupsiya və s. tipli neqativlər olmur yaxud olması prinsipcə mümkünsüzdür.

Əvvəldə də qeyd etdiyimiz kimi, rəqəmsal konstruksiya “qeyri-müəyyənliyi” aradan qaldırır… Lakin yalnız iqtisadi fəaliyyət sferasında… yalnız individual bölümdə. Yəni:

– İctimai həyatın digər sahə və sferaları – sosial, siyasi, ideoloji, mədəni-etik və s. – nəzər-diqqətdən kənarda qalır… Bu sferalarda gələcəklə bağlı hökm sürməkdə davam edən “qeyri-müəyyənliyi” hansı fəsadlı situasiyaların doğuracağı ilə bağlı… suallar cavabsız qalır. İqtisadi effektivliyin yüksəlişi… ictimai həyatın bütün spektrində adekvat yeniləşmə, adekvat keyfiyyət yüksəlişi doğuracaq tipli inam… illüziyadan başqa bir şey deyildir.

İqtisadi effektin sırf individual “sahibliyinin” qərarlaşdığı, onun “sosiallaşması” zəruriliyinə diqqət yetirilmədiyi bir situasiyada nəinki insan cəmiyyətinin yeni keyfiyyət mərhələsinə keçidi, hətta sözügedən effektin dayanıqlılığı mümkünsüz hala gələ bilər. Sosial bütövlüyün/identikliyin parçalanması, aradan qalxması ayrıca götürülmüş individiumun/fərdin “insani” mahiyyətini kəskin şəkildə deformasiyaya uğradır. İnsan – sosial varlıq olma lüksündən uzaqlaşır… Və, sonucda insan cəmiyyəti “Robinzon Kruzo”lar yığımına transfer edir. “Kruzo”lar yığımı rəqəmsal transformasiyanın ilkin olaraq yaradacaqları sırasındadır. Rəqəmsal konstruksiyanın sonrakı fəaliyyəti “heyvan → insan → maşın” üçlüyünün qarışığından (süni implantlarla) insandan “sonra” gələn varlığı – yəni postinsanı formalaşdıracaqdır. Öz adı olmayan (post – sonrakı deməkdir) varlığı – hələ vaxtilə F. Nitsşe “fövqəlinsan” adlandırmışdır: “…İnsan – heyvanla fövqəlinsan arasında uçurumun üstündən keçən kəndirdir”. [6] Amma, F.Nitşenin “fövqəlinsanı” – hər şeyi bacaran, lakin “insanlıq” mahiyyətini itirməyən varlıqdır. Rəqəmsal paradiqmanın “postinsanı” isə “maşın” kimi düşünən və hərəkət edən, insani fəzilətlərdən uzaq olan mutantdır. Mahiyyət etibarı ilə bu prosesin tarixi oxşarı da olmamış deyildir: sabiq SSRİ-də eyni cür düşünən və hərəkət edən “sovet adamı” tipinə istinadla “kolxoz” cəmiyyəti qurmağa cəhd edirdilər. Bircə fərqlə ki, bolşeviklər “sovet adamını” yeni (proletar təfəkkürlü) dəyərlər bazasında yaratmağa çalışırdılar. Və, sonucda “yenidənqurma” islahatlarına rəvac vermək məcburiyyətində qaldılar. Yəni, insanda “insanlıq keyfiyyətini” məhv edə bilmədilər. Amma, rəqəmsal konstruksiya məhz “insanlığı” məhv edir. Əgər qlobal kapitalın başlatdığı proses baş tutarsa, onda geriyə dönüş (SSRİ-də olduğu kimi) qeyri-mümkün olacaqdır.

“Hakimiyyət cəmiyyəti birləşdirən koqnitiv və semiotik sistemdir – müxtəlif sosial sistemlərdə fərqli hakimiyyət konfiqurasiyası quraşdırırlar”. [4]

Hər hansısa bir formada “eyniyyətdən” söhbət gedə bilməz. “Rəqəmsal hakimiyyət” – ifadəsi adi bir metaforadır. Rəqəmsal transformasiyanın “hakimiyyət” adı altında yaratdığı qurum – rəqəmsal şəbəkə sistemidir… Vahid mərkəzdən idarə olunmayan, funksional fəaliyyət sferaları bölümündə formalaşdırılan “avtonom statuslu “hakimiyyətlər” çoxluğunu özündə ehtiva eldən şəbəkə sistemi! Rəqəmsal iqtisadiyyatda subyektlərin davranış tərzinin model identifikasiyası, sözün müstəqim mənasında mümkünsüzdür.

**Məqsəd-vasitə ikiliyi: konseptual ümumiləşdirmənin mümkünsüzlüyü**

Məqsəd-vasitə ikiliyinə yanaşmada da konseptual ümumiləşdirilməsi mümkün olmayan bir situasiya formalaşır… İndustrial təsərrüfat tipində sakral anlayışlar kimi qəbul edilən ortodoksal “aksiomlar” “işləmir” (şəkil 2). Hər şeydən əvvəl, qeyd edək ki, məqsəq -vasitə ikiliyinə paradiqmal yanaşmada məna yaradan proses nəzər-diqqətdən kənarda qalır. Doğrudur, bir çox tədqiqatlarda “... Məna və məqsəd bir-birini əvəz edə bilər” [3, səh.263] tipli təsbitlər yer almaqdadır…

Hesab edirik ki, yanaşmada hüdudsuz/sərhədsiz ideallaşdırma yer almışdır. Belə ki, məna anlayışı deyilənlərin fonunda – ikili təzahürə malikdir:

1) Məqsədin mənası: sırf normativ xarakter daşıyır, "necə olmalıdır?" sualı ətrafında formalaşır/formalaşdırılır… Bu halda məna – subyektiv "yüklüdür". Məqsədə çatma prosesinin subyektiv məzmununu, dəyər konfiqurasiyasını özündə ehtiva edir.

2) Prosesin gedişində formalasan gerçək məzmunlu məna; Spontan qaydanın yaxından iştirakı ilə formalaşan "məna" – "nəzəri/normativ" və subyektiv "yüklü" məna ilə üst-üstə düşməyə bilər və əksər hallarda da düşmür.

Araşdırmaların da göstərdiyi kimi, heç bir məqsəd (əlalxüsus strateji məzmun daşıyan) heç bir halda tam təfərrüatı ilə gerçəkləşmir. Hələ bu azmış kimi, prosesin gedişində məqsədin vahidliyi – çoxluqla əvəz olunur. Eyni zamanda, mənanın məqsəddən asılı olmayaraq dəyişmə ehtimalı subyektiv müdaxilənin qeyri-adekvatlığından da baş verir. Bir sözlə, məqsəd – subyektiv formada müəyyənləşdirilən, məna isə obyektiv/atributlaşmış şəkildə formalaşandır. Məhz buna görə də mənanın yalnış dərki/anlaşılması idrak prosesində metodoloji fəsadlar ortalığa çıxarır. Eləcə də, daha dəqiq ifadə ilə, məqsəd – F. Bekonun [2] yazdığı kimi: "…Subyektin obyekt üzərindəki hakimiyyəti" deyil. Subyekt tərəfindən "müəyyən" gələcəyin seçilməsidir (ümumiyyətlə deyil, konkret dəyər sərhədləri olan gələcəyin), indiki – gerçəklikdən gələcək gözləntilərə keçidin trayektoriyası və mental modelini formalaşdıran/müəyyənləşdirən yanaşma tərzi, baxışlar sistemidir.

Göründüyü kimi, məqsəd → vasitə ikiliyi, tərəflərarası uyğunluğa nail olunması problemi xüsusi aktuallığı ilə seçilir.

**Nəticə**

Birmənalı olan şey ondan ibarətdir ki, bugünkü reallıqdan çıxış etməklə, "milli dövlətsiz" gələcək quruculuğu ilə bağlı konseptual dəyərləndirmə aparmaq nəzəri-metodoloji prizmadan qeyri-mümkündür. Yaxud mümkündür (ki, bir çox tədqiqatlarda buna cəhd edilir), amma spekulyativ diskursun çərçivəsində reallaşa bilər. Bu anlamda tarix sanki təkrar olunur. Vaxtilə kommunizm cəmiyyəti quruculuğuna bəslənən inam bu gün yüksək keyfiyyətli rəqəmsal cəmiyyətə münasibətdə olduğu kimi təkrar olunur. Sadəcə, bircə fərqlə: Birinci halda əsas diqqət/hədəf sosial bərabərlik şəraitində "hər kəsə qabiliyyətinə, hər kəsə tələbatına görə" prinsipi əsasında insan cəmiyyəti quruculuğu, ikinci halda isə yalnız "qabiliyyətinə/bacarığına görə" yaşayacaq "postinsan/maşın" cəmiyyətindən söhbət gedir. Hər iki yanaşma əks-qütblər olsa da, bir məsələdə yekdil mövqe sərgiləyirlər: mərkəzi hakimiyyətə/dövlətə lüzum yoxdur və o (dövlət) mütləq aradan qalxacaqdır.

Hesab edirik ki, təhrik edənin nə? yaxud nələr? olduğundan asılı olmayaraq – milli dövlətin "ölümü", hakimiyyətin əks-mərkəzləşdirilməsi / fərdiləşdirilməsi güclünün (qlobal kapitalın) dünya üzərində mütləq hakimiyyətə yiyələnməsinə gətirib çıxaracaq və əksər milli sosiumlar üçün isə sonun başlanğıcı olacaqdır. Buna görə də, verəcəyi faydanın səviyyəsindən asılı olmayaraq, rəqəmsal transformasiya, rəqəmsal konstruksiya "özbaşına" buraxıla bilməz.

## ƏDƏBİYYAT SİYAHISI

1. Bayramov Ə. Rəqəmsal inqilab: milli iqtisadiyyatın gələcəyi. Bakı, 2021. səh.256
2. Бекон Ф. Собр.соч. в 2-х Томах. М.1978
3. Левит К. О смысле истории // Философия истории. Антология. М: 1995. стр.263
4. Aydın C. The posthuman as hollow idol: A nietzchean critique of human enhancement. UK. Journal of Medicine and Philosophy. 2017, 42 (3)
5. Kerbs A. Le corps sans Organes\Les Presses de Universite Laval.2009
6. Nitse F. Beyond God and Evil: Prelude to Philosophy of the future. 1886
7. Schwab K. The fourth industrial revolution, №4, N.Y.2004,p.8

**Avaz Islam BAYRAMOV**
Azerbaijan State University of Economics, Doctor of science in economics, professor

**Vuqar Avtandil BAYRAMOV**
Phd in economics, associate professor, National Aviation Academy

## AUTONOMOUS PLURALITY OF POWER IN A FUNCTIONAL CONTEXT: CHALLENGES AND OPPORTUNITIES"

**Abstract**

Digital transformation is enabling changes that will threaten the national existence by rendering central\national authority useless. In this sense, the probability of the transition of the national society to the wrong development trajectory is quite high.

**The purpose of the research-** is to justify the impossibility of national economic development and the building of a human society living as a human being outsife of the centralized national government.

**The research method -** the methodological basis of the study refers to poststructuralism.

**The results of the research are** include the essence shades, nature and specificity of the problem, as well as censeptual boundaries.

**Key words:** authority; national entity; functionality; digital paradigm; economic action; renewal.

**АВАЗ ИСЛАМ БАЙРАМОВ**
Д.э.н профессор, Азербайджа́нский Госуда́рственный Экономи́ческий Университе́т

**Вугар Автандил БАЙРАМОВ**
Д.ф.э доцент,

## АВТОНОМНАЯ МНОЖЕСТВЕННОСТЬ ВЛАСТИ В ФУНКЦИОНАЛЬНОМ КОНТЕКСТЕ: ВЫЗОВЫ И ВОЗМОЖНОСТИ

**Резюме**

Цифровая трансформация делает возможными изменения, которые поставят под угрозу существование страны, сделав центральную/национальную власть бесполезной. В этом смысле вероятность перехода национального общества на неверную траекторию развития достаточно высока.

**Цель исследование** - обосновать невозможность развития национальной экономики и построения человеческого общества, живущего как человек, вне централизованного национального правительства.

**Метод исследования** - методологическая основа исследования относится к постструктурализму.

**Результаты исследования** - включают оттенки сущности, природу и специфику проблемы, а также концептуальные границы.

**Ключевые слова:** власть; национальный субъект; функциональность; цифровая парадигма; экономическое действие; обновление